# Ədəbiyyat Muzeyində macarşünas soydaşımızla görüş

**Milli Azərbaycan Ədəbiyyatı Muzeyində filosof, bəstəkar, şair və naşir Rasim Müzəffərlinin "Azərbaycan–Macarıstan ədəbi əlaqələri" kitabının təqdimatı keçirilib.**

Mərasimi giriş sözü ilə açan muzeyin direktoru akademik Rafael Hüseynov bildirib ki, Azərbaycan Mərkəzi və Şərqi Avropa ölkələri arasında Macarıstanla əlaqələrə xüsusi önəm verir. Mədəniyyətlərimiz də, ədəbiyyatımız da daim iki xalqın yaxınlaşmasına xidmət edib, mədəni körpü olub. Bu axşam da bizi yaxınlaşdıran, qovuşduran mədəniyyətin üzərində qurulub.

İxtisasca filosof olan, eyni zamanda şair, bəstəkar kimi tanınan Rasim Müzəffərli uzun illərdir ki, macar ədəbiyyatını Azərbaycanda tanıtmaqla məşğuldur. O, İmrə Madaçın "İnsanın faciəsi" və Şandor Petöfinin "Azadlıq və sevgi" əsərlərini doğma dilimizə tərcümə edib.

Macarıstanın Azərbaycandakı səfiri Tamaş Yojef Torma bildirib ki, Macarıstan və Azərbaycan ədəbi əlaqələri yüksək xətlə inkişaf edir. Rasim Müzəffərlinin macar şairlərinin əsərlərini tərcümə edərək kitab halında çap etdirməsi bizi sevindirir. 2018-ci ildə Rasim Müzəffərliyə Macarıstan hökumətinin mədəniyyət mükafatı təqdim olunub. Bu mükafat, əsasən, dünyada macar mədəniyyətinin tanınmasında xidmətləri olan elm və mədəniyyət xadimlərinə verilir.



Rasim Müzəffərlinin tanınmış türkoloq alim Mariya Keneşi tərəfindən macar dilinə tərcümə olunmuş şeirləri və mahnı sözləri Azərbaycan Dillər Universitetinin macar dili üzrə məzunu Arzu Cəlilovanın ifasında səslənib.



Axırda Macarıstanla bağlı şeirlərini, klassik macar poeziyasından tərcümələrini və mahnılarını təqdim edən Rasim Müzəffərli təşkilatçılara və iştirakçılara təşəkkürünü bildirib.

*Qabil YUSİFOĞLU*
*XQ*

Xalq qəzeti .- 2025.- 2 mart (№ 47).- S.9.